**Dövlət Statistika Komitəsi nümayəndəsinin Monqolustanın paytaxtında keçirilmiş "Təbii ehtiyatlara əsaslanan iqtisadiyyat üzrə statistikaya dair" Ulan-Bator Qrupunun iclasında iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndəsi Sənaye və tikinti statistikası şöbəsi müdirinin müavini R.Qurbanov 2012-ci ilin 20-22 avqust tarixlərində Monqolustan Milli Statistika İdarəsi və Avstraliya Statistika Bürosunun təşkilatçılığı ilə Monqolustanın paytaxtı Ulan-Bator şəhərində təşkil olunmuş iclasda iştirak etmişdir.



Tədbir BMT-nin Statistika Komissiyasının 2012-ci ildə keçirilmiş 43-cü sessiyasında yaradılmış "Təbii ehtiyatlara əsaslanan iqtisadiyyat üzrə statistikaya dair" Ulan-Bator Qrupunun məqsədlərinin müəyyənləşdirilməsi, iş planının, fəaliyyətə başlama vaxtının, gələcək tədbirlər üzrə gündəliklərin razılaşdırılması məqsədilə keçirilmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi Ulan-Bator Qrupuna rəsmi olaraq 2012-ci ildən qoşulmuşdur.

Tədbirdə Avstraliya, Azərbaycan, Braziliya, Çin, Hindistan, İran, Qazaxıstan, Lesoto, Madaqaskar, Meksika, Monqolustan, Rusiya Federasiyası və Vyetnamın statistika orqanlarından, MDB Statistika Komitəsi və BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO) da daxil olmaqla 40-dan çox nümayəndə iştirak etmişdir.

Gundəlikdə duran əsas movzular asağıdakılardan ibarət idi:

- Layihənin əhatə dairəsinin (əsas məqsədlərin) müəyyənləşdirilməsi;
- Ulan-Bator Qrupunun iş planının müzakirəsi;
- İş planının təsdiq edilməsi;
- Ulan-Bator Qrupunun İdarə Komitəsinə üzvlərin seçilməsi;
- Ulan-Bator Qrupunun Ekspert qrupuna üzvlərin seçilməsi.

Qeyd edilmişdir ki, qrup öz işini həyata keçirərkən - Milli Hesablar Sistemi, İqtisadi Fəaliyyət Növlərinin Beynəlxalq Standart Təsnifatı, Tədiyyə Balansı və Beynəlxalq İnvestisiya Statistikası Təlimatı, Dövlət Maliyyə Statistikası Təlimatı, Ekoloji-İqtisadi Uçot Sistemi, Enerji Statistikası üzrə Beynəlxalq Tövsiyələr və İstehlakçı Qiymət İndeksi və İstehsalçı Qiymətləri İndeksi Təlimatları da daxil olmaqla müvafiq beynəlxalq standartlara əsaslanacaqdır. Qrupun əsas rolu mədənçıxarma sənayesi və onunla bağlı fəaliyyətin effektiv ölçülməsini təmin etmək üçün müəyyən təkliflərin hazırlanmasından ibarətdir.



Tədbirdə Ulan-Bator Qrupunun İdarə Komitəsinə və Ekspert Qrupuna üzvlərin seçilməsi müzakirə olunmuşdur. İdarə Komitəsinin funksiyası "Ulan-Bator Qrupu"nun fəaliyyətinə rəhbərlik etmək, o cümlədən Ulan-Bator Qrupunun iclasında razılaşdırılmış və təsdiq edilmiş iş planının icrasına nəzarət etməkdir.

Monqolustan, Avstraliya, Rusiya, Braziliya, Çin, Hindistan, İran, Qazaxıstan, Madaqaskar Qrupun İdarə Komitəsinə üzv seçilmələri ilə bağlı təklif irəli sürmüşlər. Dövlətstatkomun nümayəndəsi Azərbaycanın qrupun İdarə Komitəsinə üzv olmasında maraqlı olduğunu və yekun qərarın Dövlət Statistika Komitəsinin rəhbərliyi ilə müzakirə olunduqdan sonra bildirəcəyini iştirakçıların diqqətinə çatdırmışdır. Eyni zamanda, nümayəndəmiz Azərbaycanda mədənçıxarma sənayesinin ÜDM-də böyük paya malik olduğu və MHS 2008-ə keçidin vəziyyəti barədə maraqlı çıxışlar etmişdir.

Daha sonra Ekspert Qrupuna üzvlük müzakirə edilmişdir. Qrupun İdarə Komitəsinə sədrlik Monqolustana, Ekspert Qrupuna sədrlik isə iki il müddətinə Avstraliyaya həvalə olunmuşdur.

Sonda tədbirdə gələcək görüşlər müzakirə olunmuş, Ulan-Bator Qrupunun iclaslarının iki ildən bir, Qrupun İdarə Komitəsinin iclaslarının hər il və 2013-cü ilin sentyabr ayında Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçiriləcəyi, Ekspert Qrupunun işinin elektron qaydada təşkil olunacağı və görüşünün keçirilməyəcəyi qərara alınmışdır.